mənə İslamda elə bir şey söylə ki, onu səndən başqa heç kimdən soruşmayım. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: De ki: "Allaha iman gətirdim, ardınca da doğru yolu tut

Əbu Amr – yaxud Əbu Amra – Sufyan bin Abdullah (Allah ondan razı olsun) belə demişdir: Dedim: “Ey Allahın Rəsulu, mənə İslamda elə bir şey söylə ki, onu səndən başqa heç kimdən soruşmayım. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: De ki: "Allaha iman gətirdim, ardınca da doğru yolu tut".
[Səhih] [Muslim rəvayət etdi]

Sahabə Sufyan bin Abdullah (Allah ondan razı olsun) Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) ona İslam dininin mənalarını əhatə edən bir kəlam öyrətməsini istədi ki, ona riayət etsin və bu haqda ondan başqa heç kimdən soruşmasın. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ona dedi: De: “Allahın təkliyini etiraf etdim və Onun mənim Rəbbim, mənim İlahım, mənim Yaradanım və şəriki olmayan haqq Məbudum olduğuna iman gətirdim. Sonra o, Allahın fərzlərini yerinə yetirərək və Allahın qadağalarını tərk edərək, Allaha itaətə yönəlir və bunun üzərində davamlı olur.

https://sunnah.global/hadeeth/az/show/66524